



# TAĞI
# TAĞIYEV

1917 - 1993

rəngkarlıq qrafika

SƏRVƏT
Bakı, 2013

Layihənin rəhbəri **Çingiz Fərzəliyev**
Layihənin əlaqələndiricisi **Toğrul Əfəndiyev**
Mətnin müəllifi **Gülnaz Quliyeva**

**Head of Project** **Chingiz Farzaliyev**
Project Coordinator **Togrul Afandiyev**
Author of the Text: **Gulnaz Guliyeva**

Azərbaycan təsviri sənət ustalarına həsr olunmuş **“Sərvət”** albomlar silsiləsinin hazırlanmasında Azərbaycan Milli İncəsənət Muzeyinin əməkdaşları yaxından iştirak etmişlər.
Silsilədə Azərbaycan Milli İncəsənət Muzeyinin,
Müasir İncəsənət Muzeyinin,
Nizami Gəncəvi adına Milli Azərbaycan Ədəbiyyatı Muzeyinin,
Azərbaycan Dövlət Rəsm Qalereyasının,
Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin,
Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin fondlarında saxlanılan əsərlərdən və arxiv materiallarından istifadə olunmuşdur.
Silsilədə həmçinin özəl qalereyalarda və şəxsi kolleksiyalarda qorunub saxlanılan sənət əsərləri də təqdim edilmişdir

Staff of the Azerbaijan National Museum of Art participated in the preparation of the **“Servet”** series of albums dedicated to the masters of Azerbaijani art.

This album series features works of art and archive materials in the following museums:

The Azerbaijan National Museum of Art,
The Museum of Modern Art,
The Nizami Ganjavi Azerbaijan National Museum of Literature,
The Azerbaijan State Art Gallery,
The Azerbaijan State Museum of Musical Culture,
The Jafar Jabbarli Azerbaijan State Museum of Theatre
and private galleries and collections

ISBN 978-9952-34-973-3
ISBN 978-9952-32-079-4

Fotolar Ələkbər Ağasiyev
Arxiv araşdırmaları Nailə Rəhimova
Baş dizayner İrina Eldarova
İngilis dilinə tərcümə Ian Peart, Səadət İbrahimova, Əminə Məlikova

Photography Alakbar Aghasiyev
Archive Research Naila Rahimova
Designer in Chief Irina Eldarova
Translation into English Ian Peart, Saadat Ibrahimova, Amina Melikova

© “Şərq-Qərb” Nəşriyyat Evi, 2013
© “Sharq-Qarb” (“East-West”) Publishing House, 2013

“Şərq-Qərb” Nəşriyyat Evinin mətbəəsində çap olunmuşdur
Azərbaycan, AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.:(+99412) 374 83 43

Printed at “Sharq-Qarb” Publishing House
Address: 17, Ashiq Alasgar Str., Baku, AZ1123, Azerbaijan
Tel.:(+99412) 374 83 43
www.eastwest.az www.fb.com/eastwest.az

# Mündəricat
# Contents

6

Tağı Tağıyev
**Həyat və yaradıcılıq**

Tagi Tagiyev
**Life and Creative Work**

98

Qısa tərcümeyi-hal
**Short Biography**



**"Natürmort"**
*Kətan, yağlı boya, 1940*
**"Still Life"**
*Canvas, oil, 1940*

# TAĞI TAĞIYEV



**Tağı Tağıyev**
**Tagi Tagiyev**

## Rəssam olmurlar, rəssam doğulurlar

Rəssam olmurlar, rəssam doğulurlar - bu məşhur ifadə bədii mədəniyyət tarixində dəfələrlə öz təsdiqini tapmışdır. Həqiqətən də, rəssamlıq imtiyaz və ya rütbə, ixtisas və ya vəzifə deyil. Peşəkar rəssam olmaq məxsusi istedad tələb edir. Məlum olduğu kimi, sənəti hər kəs öyrənə bilər, əsl sənətkar adını qazanmaq isə çox az insana nəsib olur.

Tağı Tağıyev Azərbaycan klassik rəngkarlıq məktəbinin banilərindən biri kimi tanınır. Rəssamın əsərlərində Avropa və rus rəngkarlıq məktəbinin ənənələri ilə Azərbaycan milli incəsənətinin vəhdətini görmək mümkündür. Məhz bu sintez - Azərbaycan mədəniyyətinin özünəməxsus elementlərinin, gözəl təbiətinin əsrarəngiz cəhətlərinin, həyatın qeyri-adi intensivlik və tükənməz sonsuzluq hissinin birləşməsi rəssamın yaradıcılığını yüksək səviyyəyə qaldırmışdır.

Tağı Əziz oğlu Tağıyev 1917-ci il noyabrın 7-də Bakıda, zərgərlər nəslinə mənsub ailədə dünyaya göz açıb. Onun babası Məmməd Tağı Məcidov şəhərin tanınmış zərgəri idi. Onun sənətini oğlu - Tağı Tağıyevin atası Əziz Ağa Tağıyev davam etdirirdi. Məhz bu səbəbdən Tağı Tağıyevin ailəsində

incəsənətə yüksək qiymət verilirdi. Bütün bunlar gələcək rəssamın şəxsiyyət kimi formalaşmasında böyük rol oynadı.

Tağı Tağıyev uşaqlıqdan rəssam olmaq arzusunda idi. Kiçikyaşlı Tağının istedadının üzə çıxarılmasında Azərbaycanın görkəmli rəssamı və ictimai xadimi Əzim Əzimzadənin mühüm rolu olmuşdur. O, məktəblilər arasından istedadlı uşaqları seçərək onları Bakıdakı rəssamlıq məktəbinə cəlb etməyə çalışırdı. Onları burada əsl incəsənətlə tanış edir, qarşılarında açılan tamamilə yeni və əsrarəngiz bir aləmə qovuşdurmağa cəhd göstərirdi. Sonralar bu uşaqlardan bəziləri incəsənət sahəsində təhsillərini davam etdirdilər. Onların arasında Tağı Tağıyev də var idi. Tağı Tağıyev Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda 1931-1935-ci illərdə təhsil almışdır. O, rəssamlıq məktəbində bu sənətin sirlərini öyrənməklə yanaşı, öz dəst-xəttini və gələcək yaradıcılıq yolunun istiqamətlərini müəyyən etməyə çalışırdı.

Tağı Tağıyevin 30-cu illərdə yaratdığı ilk əsərlərindən danışarkən qeyd etmək lazımdır ki, rəssamın bir sıra əsərləri üçün seçdiyi mövzular, məsələn, “Kolxoz bazarı” (1932), “Mükafat” (1935), “Pambığın təhvili məntəqəsi” (1937) həmin dövrün səciyyəvi cəhətlərini olduqca yaxşı xarakterizə edir. Artıq bu əsərlərdə rəssamın özünəməxsus üslubu, rəngin və işığın poetikasını çatdırmaq cəhdi aydın hiss olunur. Bu əsas prinsiplər rəssamın yaradıcılıq həyatının sonrakı dövrlərində



**“Natürmort”**
*Karton, yağlı boya, 1938-1941-ci illər*
**“Still Life”**
*Cardboard, oil, 1938-1941*

daha da inkişaf etdirilmişdir. Rəssamın palitrasından danışarkən qeyd etməliyik ki, Tağı Tağıyev hər şeydən öncə incə kolorit ustası olmuş, ton keçidlərini olduqca dəqiq ifadə edə bilmişdir.

Bu dövrdə rəssamın mövzu seçimi də maraqlı və orijinaldır. Zamanın tələbi ilə səsləşən və dövrünün aktual hadisələrini əks etdirən mövzularla yanaşı, rəssamın yaradıcılığının bu mərhələsində portret janrının inkişafı xususi yer tutur. "Qocanın portreti" (1933), "Qız portreti" (1936), "Qadın portreti. Etüd" (1939) , "Qız portreti"  (1937) və sair əsərlər bu qəbildəndir. Bu işlər Tağı



**"Qocanın portreti"**
*Kətan, yağlı boya, 1933*
**"Portrait of an Old Man"**
*Canvas, oil, 1933*

Tağıyev yaradıcılığının erkən dövrlərini xarekterizə edir. “Qocanın portreti” əsəri öz dəqiqliyi, ifadəliliyinə görə xüsusilə fərqlənir. Kompozisiyanın mərkəzində, tünd fonda yerləşdirilmiş obraz bir qədər fikirli və mənalı baxışları ilə əsərin təsir gücünü daha da artırır. Rəng qammalarının özünəməxsus harmoniyası, ritmikası ilə yanaşı, ton keçidləri də olduqca dəqiq verilib.

Qeyd etmək lazımdır ki, rəssamın yaradıcılığının ilk dövrünə aid olan qadın portretləri arasında “Nənəmin portreti” (1939) ən uğurlu işdir. Portretin mərkəzində ifadəli simaya malik, daxili gərginliyi ön plana çəkilən və hər şeyi bağışlamaq iqtidarında olan, xeyirxah, yaşlı qadın obrazı təsvir olunub.

Tağı Tağıyevin erkən yaradıcılığını xarekterizə edən bu  xususiyyətlər sonralar  daha da inkişaf etdirilərək rəssamın özünəməxsus dəst-xətti və üslubu kimi formalaşmışdır. Rəssamlıq məktəbini bitirdikdən sonra Tağı Tağıyev 1940-cı ildə təhsilini davam etdirmək üçün Moskvaya gedir. O, V.İ. Surikov adına Moskva Dövlət Rəssamlıq İnstitutuna, rus rəngkarlığında impressionizmin nümayəndələrindən olan Sergey Vasilyeviç Gerasimovun sinfinə daxil olur.

**“Konsert”  Etüd**
*Kətan, yağlı boya, 1939*
**“Concert” Study**
*Canvas, oil, 1939*





Qeyd etmək lazımdır ki, rus rəngkarlıq məktəbinin ənənələri Tağı Tağıyevin yaradıcılığına çox böyük təsir göstərərək elə bir möhkəm təmələ çevrilmişdir ki, sonrakı illərdə rəssamın üslubu məhz onun üzərində qurulmuşdur.

Hələ fəaliyyətinin ilkin mərhələsində müəllimi, sonralar isə yaxın dostu olmuş Sergey Gerasimov Tağı Tağıyevin öz fərdiliyi, yüksək yaradıcılıq potensialı və əməksevərliyi ilə fərqləndiyini qeyd edirdi.

Tağı Tağıyevin yaradıcılığında 40-cı illər xususi bir mərhələ təşkil edir. Bu dövrdə rəssamın sənətindəki inkişaf aydın hiss olunur. Ərsəyə gətirdiyi çoxsaylı əsərlər bunun bariz nümunəsidir. Qeyd edək ki, rəssamın yaradıcılığının bu mərhələsi mövzu və janr baxımından rəngarəng və çoxsahəlidir. Belə ki, bəhs etdiyimiz dövrdə rəssam bir çox görkəmli tarixi şəxsiyyətlərin obraz-portretlərini çəkmişdir. Bu cür uğurlu işlərdən biri də proletar inqilabının rəhbəri V.İ. Leninin portretidir. Sovet dövləti banisinin iş şəraitini daha inandırıcı təsvir etmək məqsədi ilə rəssama Leninin Kremldəki kabinetində işləmək

**"Qız portreti"**
*Kətan, yağlı boya, 1936*
**"Portrait of a Girl"**
*Canvas, oil, 1936*





“Qadın portreti Səkinə xanım”
*Kətan, yağlı boya, 1938*
**“Portrait of Sekina khanim”**
*Canvas, oil, 1938*

**“Qız portreti”**
*Kətan, yağlı boya, 1937*
**“Portrait of a Girl”**
*Canvas, oil, 1937*

üçün icazə verilmişdi. Qeyd etmək lazımdır ki, “V.İ. Lenin Kremldəki iş otağında” adlı monumental və peşəkarlıq baxımından yüksək səviyyəli əsər rəssamın yaradıcılığının inkişafında mühüm addım idi. Artıq bu əsərdə Tağı Tağıyevi istedadlı rəngkar kimi xarakterizə edən prinsiplər - fərdi ştrixlər və özünəməxsus dəst-xətt öz əksini tapmışdı. Personajın olduğu mühitin formalaşdırılması, müxtəlif xarakterli çoxsaylı əşyaları, xırdalıqları, aksessuarları dəqiq tarazlaşdırılmış və diqqətlə işlənmiş kompozisiyada yerləşdirməklə onlar arasında məntiqi əlaqənin qurulması rəssamın xüsusilə diqqət yetirdiyi məqamlardandır.

Rəssam əşyaların faktura çalarlarını, parçanın strukturunu, xalçanın yumşaq və xovlu olmasını, şüşənin şəffaflığını, ağac mebelin dayanıqlıq

və monolitliyini böyük məharətlə ifadə edə bilmişdir. Burada Tağıyevin bir rəssam kimi digər səciyyəvi cəhəti üzə çıxır ki, bu da personajın əsas mahiyyətini göstərməyə çalışması, onu şəxsiyyət kimi xarakterizə etməsindən ibarətdir.

Tağı Tağıyev Lenin obrazına müraciət edən ilk azərbaycanlı rəssam olmuşdur. Əsər 1940-cı ildə Bakıda keçirilən respublika sərgisində, sonra isə Moskvada təşkil olunan ümumittifaq sərgisində müvəffəqiyyətlə nümayiş etdirilmiş, görkəmli sənətşünaslar tərəfindən rəğbətlə qarşılanmışdır. Qeyd edilmişdir ki, gənc rəssamın belə bir böyükmiqyaslı və peşəkar əsərə imza atması iftixar hissi doğurur və bu əsər "…müharibədən əvvəlki dövr Azərbaycan incəsənətinin ən layiqli əsərlərindən biri…" kimi qiymətləndirilir.





**“Tərəvəzlərlə natürmort”**
*Karton, yağlı boya, 1940*
**“Still Life with Vegetables”**
*Cardboard, oil, 1940*

**“Növbədən qayıdanlar”**
*Kətan, yağlı boya, 1957*
**“The Shift is Over”**
*Canvas, oil, 1957*

Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar olaraq Tağı Tağıyev Surikov adına institutdakı təhsilini yarımçıq qoyaraq Bakıya qayıdır. Belə bir çətin dövrdə istedadlı, müəllimləri tərəfindən yüksək qiymətləndirilən gənc rəssamın hansı hisslər keçirdiyini təsəvvür etmək çətin deyil. Bakıda ona, xüsusi istedada malik olduğu üçün, çox az adama verilən, hərbi xidmətdən azad olunmanı təmin edən “bron” verilir. Qeyd edək ki, müharibədə



qələbənin qazanılmasında arxa cəbhədə çalışan rəssamların da zəhməti az olmayıb. Müharibə dövrünün rəngkarlığı qəhrəmanlıq mövzularının zənginliyi ilə səciyyələnir və xalqın səfərbərlik ruhunun yüksəldilməsi kimi mühüm bir işə xidmət edirdi. Qanında vətənpərvərlik ruhu çağlayan Tağı Tağıyev həmin dövrdə döyüş səhnələri və müharibə qəhrəmanlarına həsr edilən mövzular üzərində işləmiş, irimiqyaslı tematik və tarixi lövhələr çəkmişdir. Bu dövr rəssamın yaradıcılığı üçün olduqca məhsuldar olmuşdur.

**“Avtoportret”**
*Kətan, yağlı boya*
**“Self-portrait”**
*Canvas, oil*

Rəssamın tanınmış əsərlərindən general Həzi Aslanovun, mayor Əjdər Məmmədovun, Leninqrad uğrunda döyüşlərdə qəhrəmancasına həlak olmuş Hüseynbala Əliyevin, Böyük Vətən müharibəsi qəhrəmanı, cəsur zabit Ə. Maniyevin portreti və snayper M. Muradovun portretlərini göstərmək olar.

Rəssamın müharibə dövründəki yaradıcılığı haqqında danışarkən onun monumental kompozisiyalarını xüsusilə qeyd etmək lazımdır. Uzunluğu 4 metrə çatan "Bakının müdafiəsi" pannosu bu dövrə aid əzəmətli əsərlərdən sayılır. Panno dövlət sifarişi əsasında çəkilmişdi və ictimai baxış zamanı ön planda yerləşdirilən atlı zabitin arxasının tamaşaçıya çevrilməsi səbəbindən komissiyanın üzvləri tərəfindən qəbul edilməmişdi. Əsas ictimai baxış ərəfəsində rəssam görülən böyük işi təhlil edərək at ilə olan epizodu dəyişdirməyə qərar verir. Vaxt çox az olduğundan böyük əzmkarlıqla işləməyə başlayan rəssam öz rəsm texnikasını məharətlə nümayiş etdirir. Bir gecə

**"Natürmort"**
*Karton, yağlı boya, 1940*
**"Still Life"**
*Cardboard, oil, 1940*



ərzində həmin epizodu yenidən işləyir. Ertəsi gün komissiya üzvlərinə dəyişdirilmiş şəkildə təqdim edilən panno böyük heyrət və təəccüblə qarşılanır. Belə bir böyük işin cəmi bir neçə saata görüldüyünə inanmaq çətin idi. Bir dəfə ruhlanaraq iriölçülü, məzmunca dərin, icra texnikası baxımından peşəkar əsər çəkmək Tağı Tağıyevi səciyyələndirən xususiyyətlərdən idi.

Əsərə tamaşa edərkən belə bir nəticəyə gəlmək olar ki, Tağı Tağıyev monumental, mürəkkəb, çoxfiqurlu kompozisiyaların virtuoz təsvir ustası olmuş, öz yaradıcılığında Avropa, rus və Azərbaycan təsviri sənət məktəbinin bir sıra elementlərini birləşdirmişdir.

Tağı Tağıyevin müharibə illərində yaratdığı əhəmiyyətli əsərlərdən biri də «Koroğlu» monumental triptixidir. O, 1943-cü ildə mürəkkəb kompozisiya strukturuna görə fərqlənən, xalq eposunun ən mühüm məqamlarını əks etdirən monumental triptix üzərində işə başlayır. Piramida formasında qurulmuş kompozisiyanın mərkəzi kulminasiya hissəsini yan tərəflərin vahid məna yükü ilə birləşdirərək əsas

**“Buradan işğalçılar keçib”**
*Kətan, yağlı boya*
**“Where Invaders Passed”**
*Canvas, oil*





personajların bir-biri ilə qarşılaşan baxışları vasitəsilə kompozisiyanı tarazlaşdırmışdır.

Rəssam qorxmaz, məğlubedilməz, xalqı döyüşə aparan qətiyyətli milli qəhrəmanı tamamilə başqa aspektdən göstərməyi qərara alır. O, Koroğlunu aşıq paltarında, sevgilisi Nigara öz şücaətindən söz açdığı məqamda təsvir etmişdir.

Triptixin mərkəzi hissəsi, realizm ənənələri əsasında işlənmişdir. Bu kompozisiyada çoxfiqurlu döyüş səhnəsi, ekspressiya, dinamika, hərəkətlərin ildırım sürəti ilə inkişaf etməsi və rakurs müxtəlifliyi öz əksini tapmışdır. Bununla yanaşı, əsərdə mərkəzi səhnə sırf milli element olan tağ kompozisiyasında həll edilmiş, timpanlarda baş qəhrəman olan Koroğlunun əsas rəmzləri - saz və qalxan zəngin ornamentlərlə bəzədilmişdir. Rəssam Koroğlu obrazında Azərbaycan xalqına xas olan azadlıqsevərliyi, mərdliyi, cəsarəti əks etdirmişdir. Qəhrəmanın təkcə fiziki gücünü, onun döyüşlərdə göstərdiyi cəsarəti deyil, həmçinin onun mənəvi gözəlliyini, daxili xarakteristikasını da dəqiqliklə vermişdir.

Triptixin yan hissələrində əsas qəhrəmanların, zəngin saray mühitinin dəqiqliklə çəkilməsi ilə rəssamın istedadı bir daha öz təsdiqini tapır. Burada rəssamın ifadə üslubu daha çox miniatür rəngkarlığın elementlərini

**“Babəkin üsyanı” Eskiz**
*Karton, yağlı boya, 1939*
**“Babek’s Rebellion” Sketch**
*Cardboard, oil, 1939*



xatırladır. Tağı Tağıyevin yaratdığı Nigar obrazı özünəməxsus Şərq gözəlliyi və incəliyi ilə diqqəti cəlb edir.

Karton üzərində kömür və tabaşirlə işlənməsinə baxmayaraq, əsər obrazların yüksək ifadə tərzi baxımından diqqəti cəlb edir. Əsərdə mərkəzi epizodun fonunun həlli böyük maraq doğurur. Rəssam şiddətli döyüş səhnəsini şəlalədən sıçrayan su damlaları vasitəsi ilə, dərin işıq-hava perspektivi fonunda təsvir etmişdir. Bu effekt vasitəsilə rəssam nağılvari-reallıq əhval-ruhiyyəsini və triptixin süjetini çatdırmağa nail olmuşdur.

Tağı Tağıyevin 40-cı illərə aid yaradıcılıq irsinin araşdırılması bizə belə bir nəticəyə gəlməyə imkan verir ki, rəssam məhz bu dövrdə rəngkarlıq baxımından çoxcəhətli və güclü əsərləri ilə yanaşı, həmçinin portretləri ilə də xüsusilə fərqlənir. Qeyd etmək lazımdır ki, məhz müharibə illərində rəssam

**"Böyük Vətən müharibəsi qəhrəmanı Ə.Maniyevin portreti"**
*Kətan, yağlı boya, 1942*
**"Portrait of the Hero of the Great Patriotic War A. Maniyev"**
*Canvas, oil, 1942*



“Məşədi Əzizbəyovun portreti”
*Kətan, yağlı boya, 1949*
**“Portrait of Mashadi Azizbeyov”**
*Canvas, oil, 1949*

portret obrazlarında personajların daxili dünyasını açmağa səy göstərmiş, zəngin mənəvi aləmə malik obrazlar yaratmağa nail olmuşdur.

Rəssamın yaradıcılığında avtoportretlər mühüm yer tutur. Müxtəlif illərdə yaradılan bu avtoportretlərdə rəssamın tamamilə fərqli obrazları canlandırılmışdır. Sanki rəssam bu müxtəliflikdə öz daxili “Mən”inin ən incə məqamlarını çatdırmağa çalışır. Tağı Tağıyevin avtoportretlərini rəssamın



özü ilə mükaliməsi adlandırmaq olar. Rəssamın palitrasının zənginləşməsi məşhur "Xalça ilə avtoportret" (1943) əsərində öz əksini tapmışdır. Burada rəssam özünü şərq şahzadəsi obrazında, ləyaqətli baxışları uzaqlara dikilmiş tərzdə təqdim edir. Nəsillərin və ənənələrin qarşılıqlı bağlılığı ideyası, milli koloritin varisliyi və Şərq dünyaduyumunun özünəməxsus zərgər

**"Qadın portreti"**
*Kətan, yağlı boya, 1948-1949-cu illər*
**"Portrait of a Woman"**
*Canvas, oil, 1948-1949*



“**Qadın portreti**”
*Kətan, yağlı boya*
“**Portrait of a Woman**”
*Canvas, oil*

ornamentallığı rəssam tərəfindən böyük məharətlə ifadə edilmişdir. Bu əsərin bədii ifadə tərzini rəngarəng Azərbaycan xalılarının rəng çalarları və lokal ləkələrin zəngin uyarlığı müəyyən edir. Rəssamın iş üslubu, qatı, pastoz fakturada işlənən parlaq tonların qırmızıdan başlayaraq bir-birini əvəzləyən rəng keçidləri və al-qırmızı rəngin qızılı oxra, indiqo ilə uyğunlaşdırılması, bütün bunların isə



təmiz ağ və qara rənglərlə tarazlaşdırılmış vurğuları, qeyri-adi ahəngdar rəng simfoniyası formalaşdırması ilə diqqəti cəlb edir.

Rəssamın “Qaraçı qadın” portreti sərbəst üslubda işlənmişdir.  Burada gənc, həyatsevər qızın təbii gözəlliyi öz əksini tapmışdır. Rəssamın ekspressiv üslubu modelin xarakterini xüsusilə vurğulayır, demək olar



ki, sərbəst etüd təəssüratı yaradır. Lakin bütün bunlar obrazın tamlığına və dərin portret xarakteristikasının ifadəliliyinə mane olmur. Tağı Tağıyevin özünəməxsus rəsm manerası, onun detallar üzərində xüsusi diqqətlə işləməsi, aksessuarları böyük dəqiqliklə təsvir etməsi, ornamentallığı və milli özünəməxsusluğu vurğulaması onun əsərlərinə təkrarolunmaz kolorit gətirir.

Tağı Tağıyevin böyük həvəslə işlədiyi janrlardan biri də natürmort olmuşdur. Onun natürmortları nəfis kompozisiya quruluşuna, zəngin koloritə və əşya mühitinin özünəməxsus ifadəsinə görə fərqlənirdi. Belə bir nəfis gümüşü-kül rəngli koloritdə yerinə yetirilən "Stəkanla natürmort" əsəri öz lakonikliyi, dəqiq kompozisiya quruluşu ilə diqqəti cəlb edir. Rəssamın ən adi əşyalarda zəngin kolorit və faktura müxtəlifliyi tapmaq bacarığı bir tərəfdən cismin aləmini düzgün hiss etmək imkanından, digər tərəfdən isə bu aləmin gözlə görünməyən harmoniya və sirlərini ifadə edə bilməsindən və böyük istedad sahibi olmasından irəli gəlir.

**"Çəhrayı geyimli qız portreti"**
*Kətan, yağlı boya*
**"Portrait of a Girl in Pink"**
*Canvas, oil*

**"Yazı masası arxasında qadın"**
*Kağız, sulu boya, 1980-ci illər*
**"Woman sitting at the desk"**
*Paper, watercolour, 1980s*



Tağı Tağıyev onu əhatə edən hər şeydə, bəlkə də ilk baxışdan sezilməyən gözəlliyi axtarır və gələcək əsəri üçün mövzu görürdü. Bir dəfə qohumlarının evində keçirilən məclisdə rəssam gələcək əsəri üçün mövzunu görür və ev sahibəsindən hər şeyi olduğu kimi saxlamasını xahiş edir. Özü isə iki gün ərzində qonaqpərvərcəsinə açılan süfrəni fırça və qələmlə naturadan çəkir. Rəssamın məşhur əsəri olan "Yığışdırılmamış stol" məhz belə yaranmışdır.

**"Yaxt klub"**
*Kətan, yağlı boya*
**"Yacht Club"**
*Canvas, oil*



Natürmortun kompozisiyasında diqqəti cəlb edən, onun tamamilə sərbəst şəkildə işlənməsidir. Rəssamı adi əşyaların formalarının dəqiqliyi və sadəliyi maraqlandırır. Tağı Tağıyev böyük məharətlə, nəfis qrafinin şəffaf şüşəsi ilə içərisindəki içilməmiş şərabın təzadlılığını, böyük stəkandakı suyun rəngsizliyini, şampan şərabı ilə dolu büllur qədəhin naxışlarını, melxior bıçağın həcmliliyini böyük məharətlə təsvir etmişdir.



Rəssamın müharibədən sonrakı yaradıcılığı haqqında danışarkən qeyd etmək lazımdır ki, bu dövr onun portret janrı sahəsində fəaliyyətinin başlanğıcı idi. Tağı Tağıyev öz yaradıcılığında naturaya analitik yanaşma və obrazın psixoloji dünyasının təsvirinə daha çox diqqət ayırırdı. Portretlərində rəssam obrazın çatdırılmasında və ideyanın açılmasında obrazı əhatə edən əşya mühitinə xüsusi əhəmiyyət verirdi.

Qeyd etmək lazımdır ki, bu dövrdə (1945-1955) rəssam Azərbaycanın görkəmli mədəniyyət xadimlərinin portret qalereyasını formalaşdırmışdır. Tağı Tağıyev istedadlı Azərbaycan rəssamı, milli dəzgah rəngkarlığının əsasını qoyanlardan biri olan Bəhruz Kəngərlinin obrazını da bu dövrdə (1947) yaratmışdır. Bəhruz Kəngərli ali təhsil alan və milli rəngkarlığımıza realist üslubu gətirən ilk azərbaycanlı rəssam olmuşdur. Portret rəng həllinə görə olduqca mürəkkəb hesab edilir.

Tağı Tağıyevin çəkdiyi portretlər sırasında "Qara Qarayevin portreti" (1948) xususilə fərqlənir. Belə ki, rəssam böyük bəstəkarı xarakterizə edərək, onun zəngin daxili aləmini və ziyalılığını, dərin bilik sahibi olmasını tamaşaçıya çatdırmışdır. Rəssam bəstəkarın obrazı ətrafında sakit, yaradıcı şəraiti əks etdirməyə nail olmuş, onun daxili aurasını real cizgilərlə təsvir etmişdir.

Tağı Tağıyev 1950-ci ildə yaxın dostu, rəssam Kamil Xanlarovun portretini işləyir. Sadə kompozisiyada işlənən bu portretdə rəssam

**"Bakı" Etüd**
*Kətan, yağlı boya, 1959*
**"Baku" Study**
*Canvas, oil, 1959*

**"Bakı limanı"**
*Kətan, yağlı boya, 1946*
**"Baku Port"**
*Canvas, oil, 1946*

K. Xanlarovun ciddi, diqqətli baxışlarını, xarakterinin ziddiyyətləri - sadəlik və insanpərvərliyi ilə yanaşı, tərsliyini və prinsipiallığını da əks etdirmişdir.

Tağı Tağıyevin böyük Azərbaycan rəssamına həsr olunmuş “Səttar Bəhlulzadənin portreti” (1955) əsəri isə milli rəngkarlığımızın ən layiqli işlərindən biridir. Səttar Bəhlulzadə portretdə yaradıcı proses vaxtı, əsər üzərində işlərkən təsvir edilmişdir. Portret böyük ustalıqla çəkilmişdir. Rəssam canlı, oynaq yaxıların fakturasına böyük diqqət ayırır. Səttar Bəhlulzadənin fiquru olduqca mənalı görünür. Rəssam qarşımızda ağ rəng vurğusu ilə canlanır. Rəssam tamaşaçının diqqətini Səttarın uzun barmaqlarının arasında tutduğu incə fırçaya yönəldir.

Tağı Tağıyevin çoxcəhətli yaradıcılığında xüsusi yeri lirizm və incəliyə, gözəllik və sadəliyə, daxili və mənəvi zənginliyə malik qadın obrazları tutur.

Rəssamın “Gənc qadının portreti” əsəri isə özünün tipajlığı və müasirliyi, lirik cəhətləri, incəliyi və gözoxşayan rəng harmoniyası ilə fərqlənir.

“İmtahan qabağı” adlı portretdə rəssam rəng sahəsindəki axtarışlarını davam etdirmişdir. O, məhdud rəng qammalarında böyük çalar keçidlərinə nail olaraq, zəngin və gərgin, həyəcanlı və narahat əhval-ruhiyyəni sadə kompozisiya daxilində həll edə bilmişdir.





“Zənbil aparan qadın” portretində həcmlərin və rəng vurğularının incə oyunu nəticəsində rəssam bitkin və maraqlı, mənəvi dəyərlərlə zəngin Azərbaycan qadınının obrazını qəribə şəkildə canlandırır. Bu obraz əyilməzlik və xarakterin möhkəmliyi, incəlik və xeyixahlıq, eləcə də həyat müdrikliyini özündə əks etdirir.

Rəssam “Maral Rəhmanzadə”nin ayaqüstə çəkilən gözəl və qamətli portreti Tağı Tağıyev tərəfindən böyük zövqlə işlənmişdir. Rəssam onun əynindəki yüngül yay paltarının parçasının qatlarını, yaylığının şəffaflığını, qızılı saplarla tikilən zəngin naxışlarını, qızıl qolbaq və üzüyünün metal effektini böyük məharətlə və tamamilə real şəkildə əks etdirə bilmişdir.

“Qarabuğdayı qız” əsərində rəssam qəşəng, daxili gözəlliyi ilə işıq saçan, ciddi və ziyalı gənc qız obrazını canlandırmışdır. Nəfis seçilmiş rəng

**“Dəniz”**
*Ağac, yağlı boya, 1953*
**“The Sea”**
*Wood, oil, 1953*

**“Bakı limanı”**
*Kətan, yağlı boya, 1946*
**“Baku Port”**
*Canvas, oil, 1946*

qamması mirvari - ağ və qızılının qarışığından parlaq sarı rəngə keçərək, tünd-qəhvəyi ətəyin ştrixləri ilə tamamlanır.

Tağı Tağıyev müxtəlif illərdə həyat yoldaşı Həbibə xanımın çoxsaylı portretlərini çəkmişdir. Rəssamın gündəlik ailə həyatını əks edən, qələmlə çəkilən cızma rəsmlərdəki müşahidələri özünün təbiiliyi ilə diqqəti cəlb edir. Rəssam sevimli ailəsini gəzintidə, dənizdə, bazardan qayıdarkən və s. kimi çoxsaylı səhnələrdə əks etdirir. Bütün bunlar onu göstərir ki, rəssam ailəsinin həyatında yaxından iştirak edərkən belə bir anlıq da olsa öz sevimli məşğuliyyətindən ayrılmırdı.

Maraqlı faktdır ki, rəssam müxtəlif texnikalarda işləsə də, əsərlərinin rəng quruluşunu dəyişsə də, daima yüksək bədii dəyərə malik əsərlər çəkmişdir. Onun əsas müəllimləri təbiət və insanlar olmuşdur desək yanılmarıq. Rəssam onlardan ruhlanmışdır. Onun üçün bütün həyatın mənası rəngkarlıqda və sehrli rənglər dünyasında idi. Lakin zaman keçdikcə rəssam üçün həyatın daha bir mənası da yaranırdı - bu, onun ailəsi idi. Tağı Tağıyevin yaradıcılıq və şəxsi taleyi bir vəhdət təşkil edirdi. Bu, qəlbləri bir-birinə yaxın olan, həyatlarını incəsənətə həsr etmiş iki istedadlı insanın qovuşmasının nəticəsi idi. Gələcək xanımı ilə Tağı Tağıyev kimi ziyalı, ciddi, incəsənətə bağlı bir insanın görüşməsi olduqca rəmzi olmuşdu. Onlar muzeydə tanış olmuşdular. Allah istedadlı rəssama onu qiymətləndirə





bilən, onun sənətini başa düşən, ona dost və məsləhətçi ola biləcək, incə zövqə malik bir qadın yetirmişdi. Uşaq portretləri rəssamın əsərləri arasında xüsusi qrup təşkil edir. Bu portretlərdə rəssam uşaq hislərinin və həyat duyumunun paklığını və təmizliyini çatdırmağa və onları dolğun şəkildə ifadə etməyə nail olmuşdur.

Rəssamın “Şagird portreti” (1957) əsəri onun uğurlu portretlərindəndir. Tağı Tağıyev uşaqlara məxsus olan ani əhval-ruhiyyə dəyişkənliyini müşahidə edərək, bu təəssüratı böyük məharətlə təsvir etmişdir. “Çıxışdan əvvəl” əsəri də bu qəbildəndir. Əsərdə müşahidənin dəqiqliyi, parlaq major qamması və pərdə arxasının həyəcanlı atmosferi böyük məharətlə işlənmişdir.

Tağı Tağıyevin “Kəpənək”, “Körpə”, “Gülər”, “Diloş”, “Ata hədiyyəsi” adlı əsərlərində uşaqların paklığı, xoşbəxt, sakit, sirli, kiçik sevinclərlə və qeyri-adi kəşflərlə dolu bir aləm əks etdirilmişdir.

Rəssamın yaradıcılığında mənzərə janrı mühüm yer tutur. Burada rəssam incə kolorit ustası olduğunu bir daha təsdiqləyir. Özünün çoxsaylı

**“Zaqulba çimərliyi”**
*Karton, yağlı boya*
**“Beach in Zagulba”**
*Cardboard, oil*







**“Buzovna çimərliyi”**
*Karton, yağlı boya, 1950-ci il*
**“Beach in Buzovna”**
*Cardboard, oil, 1950*

mənzərələrində rəssam Abşeron çimərliklərinin isti yay günlərini, Bakının dar küçələrini, bulvar buxtasının gecə çağını, Azərbaycan təbiətindəki yaşıllığın təravətini və göllərin şəffaflığını poetik ifadə üsulu ilə kətana köçürür. Məhz belə əsərlərində rəssamın fransız impressionizmindən yaradıcı şəkildə yararlanması, Serov və Korovinin rəng ləkələri, fakturalı yaxılar, hava ilə dolu plener rəngkarlığından faydalanması özünü büruzə verir.

Rəssamın Bakıya həsr etdiyi əsərlər içərisində ən uğurlularından "Bakının dənizdən mənzərəsi" (1947) hesab olunur. Bu əsər Tretyakov qalereyası tərəfindən alınmış və hal- hazırda qalereyanın fondunda saxlanılır. Əsərin rəng quruluşu nəfis və mürəkkəbdir. Rəssam boz-mirvari və açıq-bənövşəyi rəng qammasında qısa, ekspressiv və pastoz yaxılarla su və hava axınını formalaşdırır.

Qeyd etmək lazımdır ki, rəssam tərəfindən Bakı buxtasının gözəlliklərini əks etdirən xeyli kompozisiya variantları çəkilmişdir. Tağı Tağıyev, adətən, rəngkarlıq əsərləri üçün çəkilən etüdləri naturadan işləyirdi. Bu əsər üzərində işləyərkən rəssam qayıqda dənizə çıxaraq kompozisiya üçün Bakı buxtasına ən gözəl mənzərənin açıldığı rakursu seçmişdi. Adətən rəssam öz mənzərələrində üfüqi formata üstünlük verir və bu çərçivədə öz qəlbinə yaxın motiv və görünüşləri tələsmədən, böyük duyğu ilə ifadə edir. Onun Bakıya həsr edilən məşhur işləri arasında "Bakı emalatxanamın pəncərəsindən" (1958), "Bakı. Tutqun gün" (1959) əsərlərində rəssam özünü

**"Bakıda Karl Marks adına bağ" Etüd**
*Kətan, yağlı boya, 1944*
**"Karl Marx Garden in Baku" Study**
*Canvas, oil, 1944*





təkcə rəng ustası kimi deyil, həmçinin incə lirik kimi göstərir. Bu əsərlər dərinmənalı və ifadəli olub, tamaşaçının ürəyini riqqətə gətirir.

Tağı Tağıyev Azərbaycanı çox gəzmiş və doğma diyarın təbiətinə vurğun bir rəssam kimi öz mənzərələrində onu tərənnüm etmişdir. 1946-cı ildə o, bir qrup rəssam ilə yüksək dağ gölü olan Göygölə səfər etmiş və bu səfərdən sonra onun çoxsaylı etüdləri və naturadan çəkdiyi rəngkarlıq əsərləri meydana gəlmişdir. Bu əsərlərdə rəssam həqiqətən böyük ilhamla sıx meşəli dağ massivi ilə əhatə edilən Göygölün əfsanəvi gözəlliyini əks etdirmişdir . Bu silsilənin ən məşhur işləri "Yağışdan sonra" və "Göl sahili" əsərləridir.

Öz mürəkkəbliyi və zənginliyi ilə seçilən bədii obrazlar, ətraf aləmin dərindən ifadə edilməsi, insanların yaradıcı əməyinin əks olunduğu sənaye mənzərələri, təbiəti ram edən fəhlə və neftçi obrazları məhz Tağı Tağıyevə məxsusdur. Rəssam dəfələrlə Neft Daşlarına səfər etmişdir. Bu silsilədən olan əsərlər arasında "Dənizdə şəhər", "Rezervuarlar", "Dəmir dirəklər

**"Köhnə şəhər" Etüd**
*Kətan, yağlı boya, 1945*
**"Old City" Study**
*Canvas, oil, 1945*



üzərində səhər" (bəlkə burada "səhər" əvəzinə "şəhər" sözü yazılmalıdır?), "Ay işığında", "Qarlı yollar", "Estakada" və b. göstərmək olar.

Rəssam tərəfindən təsvir edilən fəhlə və neftçi obrazları olduqca maraqlıdır. Bu obrazların xarakteristikasının ifadəsi üçün rəssam iri plan seçərək açıq simaları təsvir edir. Belə əsərlərində rəssam tanış prototiplərdən uzaqlaşaraq, ümumiləşdirilmiş, mənəvi və fiziki cəhətdən güclü, öz məqsədinə doğru addımlayan əməkçi obrazlarını yaratmışdır.

Bu məqsədə nail olmaq üçün rəssam iriformatlı kompozisiyalara, yığcam ümumiləşdirirlmiş formalara, güclü vurğulara malik rəngkarlıq qammalarına

**"Kişi portreti"**
*Kağız, qara sulu boya*
**"Portrait of a Man"**
*Paper, black watercolour*

**"Xalça satıcısı"**
*Kətan, yağlı boya, 1943*
**"Carpet Seller"**
*Canvas, oil, 1943*





müraicət edir. Buna misal olaraq, rəssamın bu janrdan ən məşhur əsəri olan "Qaynaqçı" (1959) əsərini göstərə bilərik.

Rəssam ona maraqlı olan insanların şəxsiyyətlərinin əhəmiyyətini çatdırır, qadın obrazlarının lirizm və incəliyini ifadə edir, təbiətin gözəlliklərini və ülviliyini, əşya aləminin parlaq rəng keçidlərini natürmortlarında yaşadır. Onun əsərləri üçün parlaq fərdilik, tanınan dəst-xətt, özünəməxsus yanaşma tərzi, virtuoz rəsm teknikası, mürəkkəb və zəngin kolorit kimi xüsusiyyətlər xasdır. Yaradıcılığının yeni mərhələsində isə Tağı Tağıyevin rəsm manerası, kolorit qamması dəyişir, əsərlərində yeni motiv və mövzular meydana çıxır, qarşısında yeni, qeyri-adi bir aləm açılırdı.

1961-ci ildə Tağı Tağıyev Qərbi Afrika ölkələrinə yaradıcılıq ezamiyyətinə gedir. O, Mərakeş, Qvineya, Seneqal, Fil Dişi Sahilinə səfər edir. Bu səfərdən aldığı təəssüratlar rəssamın yaradıcılığına güclü təsir göstərir və o, Afrikaya, onun təbiəti və insanlarına həsr olunmuş əsərlər silsiləsi hazırlayır. Afrika qadınlarından bəhs edən lirik və eyni zamanda çox dekorativ kompozisiyalarda rəssam təbii gözəllikləri ifadə etməyə cəhd edir. Bu dövrdə rəssamın palitrası və rəsm manerasının dəyişməsi

**Tağı Tağıyev dostları Baba Əliyev, Mürsəl Nəcəfov, Səttar Bəhlulzadə və digərləri ilə**
**Tagi Tagiyev and his friends Baba Aliyev, Mursal Najafov, Sattar Bahlulzade**

**"Şəhər mənzərəsi"**
*Karton, yağlı boya*
**"City Landscape"**
*Cardboard, oil*

aydın hiss olunur. O, daha çox dekorativliyə və demək olar ki, plakat ifadəliliyinə meyl etməyə başlayır. Əsərlərində həcmlər silinir, əşyalar səthi xarakter alır, gur işıq seli güclənir və bu vaxt yarımkölgələr itirilir. Nəfis gümüşü-mirvari palitra, açıq və təmiz rənglərlə əvəzlənir. Qeyd etməliyik ki, təmiz rənglərlə harmonik kolorit qurmaq daha mürəkkəb olsa da, rəssam bu işin öhdəsindən böyük məharətlə gəlir. Tağı Tağıyevin bu dövrə aid olan əsərlərində rənglər daha parlaq, işıq-kölgə effektləri daha güclüdür. Burada rəssam əyani şəkildə incəsənəti təkcə reallığın imitasiyası kimi qəbul etmir, onun təfəkkür azadlığı və mücərrəd düşüncə tərzinə geniş imkan verməsi ilə qarşılaşır. Lakin bununla yanaşı, rəssam öz prinsiplərinə sadiq qalır və əsərlərində təbiətin təbii və düzgün formalarını saxlamağa çalışır. Ön plana ümumiləşdirmək cəhdi çıxır ki, bu da diqqəti əsərlərindəki əsas məqamlarda cəmləşdirmək məqsədi daşıyır.

Rəssamın Afrika silsiləsinə aid olan "Afrika qızı" əsəri mühüm əhəmiyyətə malikdir. Beləliklə, tamaşaçının qarşısında al şəfəqə qərq olan







qürub çağı, güclü iradəyə və bədən quruluşuna malik, gözəl gənc afrikalı qadın canlanır.

Rəssam lakonik, lakin dəqiq kompozisiya qurmaqla dekorativliyə meyl edir, monumental, ciddi əsərlər üzərində işləyir. Bu silsilədən olan profildən işlənən qadın portreti diqqəti xüsusilə cəlb edir. Rəssamın afrikalı qadını və iki uşağı təsvir edən əsəri özünün parlaq rəngləri, major əhval-ruhiyyəsi, həyatı təsdiqləyən koloriti ilə diqqəti cəlb edir.

Rəssamın yaradıcılığında Afrika səfərindən sonrakı dövr yeni estetik prinsiplərin axtarılması və sənətə münasibətdə yeni baxışların inkişaf etdirilməsi ilə xarakterizə edilir. Bu vaxt dekorativliyə meyl, rəng ləkələri və siluetin qurulması, ifadəli xətti ritmikaya meyl artır. Rəssamın rəng baxımından dinamik şəhər panoramını təsvir edən, uğurlu kompozisiya quruluşuna malik olan əsəri "Tanjer limanı" adlanır. Tağı Tağıyev burada parlaq və əlvan rənglərdən istifadə etməklə bəzən reallıqdan uzaqlaşsa da, günəş işığı ilə dolu olan liman buxtasından aldığı böyük təəssüratlarını tamaşaçı ilə bölüşür.  Üfüqdə parlaq günəş işığında şəhərin çəhrayı cizgiləri əriyərək itirilir, kətanın sol küncündəki parlaq narıncı tikililər isə tarazlığı saxlayaraq, dənizdəki dalğaların sahilə çırpılan ağ ləpələri ilə həmahəng baxılır. Bu kontekstdə rəssamın "Emalatxanadan görünüş" və "Kaktuslar qoyulan emalatxanadan görünüş" əsərlərini qeyd etməliyik. Burada lirizmlə zəngin olan və rəssamın ilkin yaradıcılıq dövrünə aid olan

**"Bəhruz Kəngərlinin portreti"**
*Kağız, sulu boya, 1960*
**"Portrait of the Bahruz Kengerli"**
*Paper, watercolour, 1960*

**"Bəhruz Kəngərlinin portreti"**
*Kağız, sulu boya, 1946*
**"Portrait of the Bahruz Kengerli"**
*Paper, watercolour, 1946*

**"Rəssam Bəhruz Kəngərlinin portreti"**
*Kətan, yağlı boya, 1943-1947-ci illər*
**"Portrait of the Artist Bahruz Kengerli"**
*Canvas, oil, 1943-1947*





"Emalatxanadan görünüş" əsərinin fərqliliyi hiss olunur. Öz bədii həllinə görə bu iki əsər sanki "Tanjer limanı" mənzərəsinin davamı kimi çıxış edir. Burada səthi kompozisiya, rəng başlanğıcının üstünlüyü, formaların dekorativliyi və ümumiləşdirilməsi, yumşaq musiqi ritmləri və stilizə etməyə meyl hiss olunur.

Qeyd etmək lazımdır ki, Tağı Tağıyevin yaradıcılığında milli elementlərdən istifadə olunmuşdur. O, Azərbaycan dekorativ tətbiqi sənətinin parlaq və əlvan koloritinin, onun zəngin və çoxcəhətli ornamental üslubunun, Azərbaycan incəsənətinin özünəməxsus cəhətlərinin mahir bilicisi idi. Bu baxımdan "Mənim babam və nənəm" və Qarabağ kilimi fonunda işlənmiş "Kəlağayılı gənc qadının portreti" adlı əsərləri rəssamın yaradıcılığında özünəməxsus yer tutur. Hər iki əsər rəng qammalarının gücü, sadə lakonik kompozisiya quruluşu ilə fərqlənir. Sadəliyi ilə yanaşı, fondakı xalçanın ritmik ornamental tərtibatı nəticəsində kifayət qədər dinamik və dekorativ baxılan bu kompozisiyalarda xalça mühüm əhəmiyyət kəsb edir. Azərbaycan xalçalarının kompozisiya quruluşlarının kamilliyi, ornamental üslubu rəssamı daim ruhlandırmışdır.

**"Gül dəstəsi"**
*Kətan, yağlı boya, 1945*
**"Bouquet of Flowers"**
*Canvas, oil, 1945*

**"Natürmort. Meyvələr"**
*Kətan, yağlı boya, 1945-1946-cı illər*
**"Still Life. Fruit"**
*Canvas, oil, 1945-1946*









**“Dənizkənarı park”(s. 44-45)**
*Kətan, yağlı boya, 1946*
**“Promenade Park”**
*Canvas, oil, 1946 (p. 44-45)*



**“Avtoportret”**
*Kətan, yağlı boya, 1945-1947-ci illər*
**“Self-portrait”**
*Canvas, oil, 1945-1947*

**“Maralçı”**
*Kağız, qarışıq texnika. 1960-cı illər*
**“Deer Hunter”**
*Paper, mixed techniques, 1960s*

“Soltan Məhəmməd” (1972) portretində rəssam öz qarşısına Azərbaycan miniatür rəngkarlığının nəfis gözəlliyini göstərmək və onun əsas nümayəndəsi - XVI əsrdə yaşamış rəssam Soltan Məhəmmədi təqdim etmək məqsədini qoymuşdu. Əsərin ölçüləri kifayət qədər böyükdür, kətan üzərinə miniatür rəngkarlığına xas olan kostyum detalları, personajları əhatə edən şərait və əşyaların ən xırda elementləri incəliklə təsvir edilib. Maraqlı fakt ondan ibarətdir ki, əsər Soltan Məhəmmədin miniatür məktəbinə uyğun





**“Pəncərə”**
*Kətan, yağlı boya, 1958-1959-cu illər*
**“Window”**
*Canvas, oil, 1958-1959*





**“Sənaye mənzərəsi. Bakı”**
*Kətan, yağlı boya, 1950*
**“Industrial Landscape. Baku”**
*Canvas, oil, 1950*

şəkildə çəhrayı-qızılı koloritdə işlənmiş və əsas qəhrəman mücərrəd, lakin ideal təbiət mənzərəsi fonunda təsvir edilmişdir. Soltan Məhəmməd obrazı yaradıcılıq anında təsvir olunub, yanında isə rəssamın məşhur əsərləri çəkilən vərəqlər görünür. Əsərə baxan tamaşaçı nəfis koloritdə işlənmiş və kompozisiya quruluşuna görə N. Gəncəvinin "Xəmsə"sinə çəkilən "Xosrov çimən Şirini seyr edərkən" miniatürünü görür. Rəssam miniatür rəngkarlığının ənənəvi elementlərindən istifadə etməklə səthi kompozisiyada, şərti mənzərə fonunda, dekorativ koloritdə işləyərək məşhur rəssamın parlaq obrazını canlandırır.

Tağı Tağıyevin yaradıcılığı çoxsahəli və çoxcəhətli olmuşdur. O, təcrübəli rəssam kimi bütün yaradıcılığı boyu yenilik axtarışında olmuşdur. Rəssamın yetkin yaradıcılıq dövrünə aid olan iki əsəri "Hüseyn Cavidin portreti" və "Gecə mənzərəsi" əsərləri böyük marağa səbəb olmuşdur. Hər iki əsərdə rəssam sanki kiçik rəng nöqtələrini mozaikaya bənzər yaxılarla vurur, bütün bunlar isə əlvan kollaj kimi qavranılır.

Bununla əlaqədar olaraq Tağı Tağıyevin 1970-ci ildə çəkdiyi, oğlu Əkrəmin portreti haqqında danışmaq yerinə düşərdi. Ata oğlunun sanki gələcəkdə hansı peşəyə sahib olacağını əvvəlcədən görərək onu emalatxanada təsvir etmişdir. Rəssam portretdə gələcəyin rəssamını təsvir etdiyini bir neçə detalla göstərir. Tağı Tağıyev ömrünün son illərində klassik portret janrına yenidən qayıdaraq, Azərbaycan mədəniyyətinin görkəmli nümayəndələrinin portretlər qalereyası üzərində işi davam etdirir. Bu silsilədən olan "İlham" əsərini xüsusilə qeyd etmək lazımdır. Bu portretdə Tağı Tağıyev Azərbaycanın görkəmli bəstəkarı Üzeyir Hacıbəylinin təkrarolunmaz obrazını yaratmışdır. Rəssam Şərqlə Qərbin melodiya vəhdətinin əsasını qoyan bir şəxsiyyətin - bəstəkarın obrazını yaratmışdır. Rəssam bəstəkarı zəngin və nəfis toxunulan Azərbaycan xalçası fonunda, royal arxasında yeni əsər üzərində işlədiyi anda təsvir etmişdir. Əsərdə rəssamın ideyası, demək olar ki, canlı şəkildə hiss edilir; xalçanın toxunuşunun ornamental harmoniyası, naxışların ritmikliyi, sanki musiqinin yaranmasına özünün rəvan və təmiz səsini əlavə edir. Yuxarıda qeyd edildiyi kimi, Tağı Tağıyevin yaradıcılıq irsi olduqca zəngindir. Onun yaratdığı rəngkarlıq əsərləri və çoxsaylı qrafik işləri muzey fondlarında qorunaraq saxlanılır, fərdi kolleksiyalarda və sərgi salonlarında böyük müvəffəqiyyətlə nümayiş etdirilir. Bu əsərlərin hər birində rəssam yaşadığı dövrün özünəməxsus tarixçəsini əks etdirmiş, görkəmli müasirlərinin və Azərbaycanın keçmiş dövrlərdə yaşamış görkəmli nümayəndələrinin obrazlarının gələcək nəsillərə çatdırılması kimi şərəfli missiyanı böyük məharətlə yerinə yetirmişdir. Bu əsərlərə baxan tamaşaçı rəssamla bir yerdə qədim Bakıya səyahət edir, doğma diyarın gözəlliklərini seyr edir,

**"Kişi portreti"**
*Kətan, yağlı boya, 1952*
**"Portrait of a Man"**
*Canvas, oil, 1952*



dağ meşələrinin büllur kimi saf və təmiz havasını, kiçik çayların incə şırıltısını və əfsanəvi göllərin həzin pıçıltısını hiss edir.

Qeyd etmək lazımdır ki, Tağı Tağıyev ölkənin mədəni həyatında fəal iştirak etmiş, respublika və ittifaq miqyaslı sərgilərin iştirakçısı olmuş, televiziyada çoxsaylı çıxışlar etmişdi. Onun ilk fərdi sərgisi 1968-ci ildə



açılmış və bu sərgidə rəssam tamaşaçıların ixtiyarına yüzdən artıq əsər təqdim etmişdi. Bu sərgi sanki rəssamın əvvəlki illərdəki yaradıcılıq fəaliyyətinin nəticəsi və özünəməxsus yekunu kimi təqdim edilmişdi. Sərgi tamaşaçılarda böyük təəssürat oyatmış, gənc rəssamları Tağı Tağıyevin yaradıcılıq potensialı və çəkdiyi işlərin səviyyəsi ilə heyrətləndirmiş, onun palitrası, obrazların ifadəsi, aydın kompozisiya qurmaq bacarığı sənət biliciləri tərəfindən böyük maraqla qarşılanmışdır. Tağı Tağıyevin əsərləri onun həyatının ayrılmaz hissəsi olmuş, onun qəlb konfliktləri, hiss və həyəcanları bu işlərdə əks etdirilmiş, onun kətan üzərində yaratdığı heyrətamiz harmoniya və emosional-hissi aləmin özünəməxsus ifadəsi olmuşdur.

Tağı Tağıyev 1993-cü ildə vəfat etmişdir. Böyük qəlbə malik insan və istedadlı rəssam dünyamızı tərk etdikdən sonra da bizim qəlbimizdə yaşayır, əsərləri onun adından bizimlə danışır.

***Gülnaz Quliyeva, Bakı, 2013***

**"Güllər" Natürmort**
*Kağız, tuş, 1960*
**"Flowers" Still Life**
*Paper, black ink, 1960*

**"Natürmort"**
*Kətan, yağlı boya, 1950*
**"Still Life"**
*Canvas, oil, 1950*





# TAGI TAGIYEV

## Painter is born, not become

Painter is born, not become - this well-known saying has proven itself throughout the literary-cultural history. Actually, painting is not a ranking, profession or a position and unique talent is needed for professional painting.  As is known, anybody may master art but only a handful of people earn the title of a true artist.

Tagi Tagiyev is renowned as one of the persons having laid foundation of the school of painting in Azerbaijan. Synthesis of the traditions of the European and Russian art schools with national Azerbaijani art is clearly

**"Çiyin üstündən"**
*Kağız, qara sulu boya, 1960-cı illər*
**"Over the shoulder"**
*Paper, black watercolour, 1960s*

**"Avtoportret"**
*Kətan, yağlı boya, 1953*
**"Self-portrait"**
*Canvas, oil, 1953*







manifest in the painter's works. It is namely due to this synthesis integrating unique features of the Azerbaijani art, colorful and beautiful nature of the country, life's extraordinary intensiveness and inexhaustible infinity that the painter's work has reached such heights.

**"Qız portreti"**
